Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 225 (1353) 7 dekabr - 8 dekabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# KÜRDƏMİR: İNKİŞAF SEVİNC BƏXŞ EDİR

(əvvəli ötən sayımızda)

**Ölkə Prezidenti Azərbaycana valyuta axınının təmin edilməsi məqsədilə ixracyönümlü məhsulların istehsalının xüsusi əhəmiyyət daşıdığını, pambığın da ixracyönümlü məhsul olduğunu və bu sahənin ciddi inkişaf etdirilməsini qarşıda mühüm vəzifə kimi qoymuşdur.**

Həmin tapşırığın icrasını təmin etmək məqsədilə rayonda bütün imkanlar təhlil olunaraq qısa müddətdə qərargah yaradılmış, şirkətlərlə, aidiyyəti xidmət təşkilatları ilə birgə əlaqəli iş qurulmuşdur.

Müqavilə bağlanmış zavodlar tərəfindən pambıqçıların təchizat və təminat məsələləri yüksək səviyyədə həll olunmuş, nəticədə qısa müddətdə 1911 hektar sahədə pambıq əkilmişdir. Becərmə işləri də aqrotexniki qaydada aparılmış, sahələrdə bol məhsul yetişdirilmişdir.

Pambıq yığımına 1000 nəfərə yaxın işçi qüvvəsi, 2 pambıqyığan maşın, digər maşın və mexanizmlər cəlb edilmiş, 1500 tonadək pambıq toplanmış və zavoda təhvil verilmişdir. Ümumilikdə pambıq əkini, becərilməsi və yığılması işinə rayon üzrə 2000-dən çox işçi qüvvəsi cəlb edilmişdir.

Rayonda pambıqçılığın inkişafı ilə əlaqədar Cənab Prezidentin tapşırığına uyğun olaraq pambıq sahələri gələn il üçün 2 dəfə artırılaraq 4 min hektara planlaşdırılmış və pambıq əkiləcək yerlər indidən seçilmişdir.

Yüksək məhsul götürmək üçün pambıq əkiləsi sahələrin şumu faraş və keyfiyyətli aparılmalı, qış aratına üstünlük verilməli, aprel ayında növbəti ilin məhsulu üçün əkin aparılmalıdır. Bütün bunlar nəzərə alınaraq, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsini təmin etmək məqsədilə şirkətlərlə birlikdə pambıq əkini üçün müqavilələrin bağlanmasına və şum işlərinin aparılmasına başlanılmışdır.



**"İqtisadi müstəqillik bizim üçün böyük imkanlar açır. Biz iqtisadi müstəqilliyimizi düşünülmüş siyasətlə, aparılan islahatlarla, investisiya siyasətimizlə və regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə təmin etmişik. Əminəm ki, növbəti illərdə bütün şəhər və rayonlarımızda işlər daha da sürətlə gedəcək. Çünki artıq çox möhkəm baza var. İnfrastruktur layihələrinin böyük əksəriyyəti icra edilir. Növbəti illərdə biz sənayenin, kənd təsərrüfatının inkişafı ilə daha çox məşğul olacağıq".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Cənab Prezident baramaçılıq sahəsində də böyük inkişafın müşahidə edildiyini və bu sahənin ixrac yönümlü məhsullardan olmasını, ölkənin valyuta ehtiyatlarının artırılmasında və yeni iş yerlərinin yaradılmasında mühüm amil olduğunu qeyd edərək baramaçılığın inkişaf etdirilməsini vəzifə kimi qarşıya qoymuşdur. Baramaçılığın inkişafı ilə əlaqədar bu il rayonda 46 kümçüyə 80 qutu barama qurdu verilmişdir. Kümçülərdən Şəki İpək Açıq Səhmdar Cəmiyyəti tərəfindən 4 tonadək barama tədarük edilmişdir. Barama istehsalına 240 nəfər işçi cəlb olunmuşdur. Gələn il 7 ton barama istehsalı nəzərdə tutulmuşdur. Baramaçılıq üçün yem bazasının yaradılması məqsədi ilə rayonumuzda 45 minə yaxın tut ağaclarının əkiləcəyi nəzərdə tutulur.

Ölkə Prezidentinin tapşırığına əsasən gələn il üçün 2000 hektar sahədə şəkər çuğundurunun da əkilməsi planlaşdırılıb.

Kənd təsərrüfatını inkişaf etdirmək və yüksək məhsuldarlığa nail olunmasında meliorasiya və suvarma sistemləri mühüm rol oynayır. Torpaqların su təminatının yaxşılaşdırılması məqsədilə, bu ilin 9 ayında 724 km kanal və 94 km dren şəbəkəsi lildən təmizlənmiş, 75 hidrotexniki qurğu, 24 nasos kompleksi cari təmir olunmuş, 10,0 km beton kanal əsaslı təmir edilmiş, 400 metr yeni latok kanal çəkilmişdir. Pambıq sahələrini normal su ilə təmin etmək üçün 163 km kanal lildən təmizlənmiş və yenidən qazılmışdır. Növbəti ildə pambıq və çuğundur əkiləcək yeni sahələrin suvarma suyu ilə təmin edilməsi tədbirləri indidən görülməlidir. Rayonun Carlı kəndi ərazisində kəndin əkin və həyətyanı sahələrinin su ilə təminatının yaxşılaşdırılması məqsədi ilə "Xəzər-İnşaat E" MMC tərəfindən Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı ASC-nin sifarişi ilə nasos stansiyasının tikintisinə başlanılmışdır.

Rayonda heyvandarlığın və quşçuluğun inkişaf etdirilməsi sahəsində məqsədyönlü işlər görülür. Hazırda iri buynuzlu mal qaranın sayı 65 min başa, qoyun keçilərin sayı 133,7 min başa çatmış, heyvandarlıq məhsulları istehsalının dinamik artımına nail olunmuş, bu ilin doqquz ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,1%, süd istehsalı 2,4 %, yumurta istehsalı 0,3 faiz, yun istehsalı 0,5% artmışdır.



Rayonda məhsuldar cins heyvanların artırılması tədbirləri görülür. Lizinq yolu ilə alınmış 217 baş cins düyə artırılaraq 600 başa çatdırılmışdır. Rayonda bu ilin doqquz ayında 935 mal süni mayalandırılmış, 427 baş cinsi yaxşılaşdırılmış bala alınmışdır. Cins heyvanların yüksək texnologiya ilə saxlanması təmin edilmişdir.

### *Xidmət sahələrinin fəaliyyəti razılıqla qarşılanır*

Əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatının yaxşılaşdırılması rayon İcra Hakimiyyətinin daim diqqət mərkəzində olmuşdur. Dövlət Proqramına uyğun olaraq "Azəriqaz" İstehsalat Birliyinin Kürdəmir Xidmət Sahəsi tərəfindən cari dövrdə rayonun mövcud qaz alan yaşayış məntəqələrində təchizatın daha da yaxşılaşdırılması, normadan artıq qaz itkilərinin minimuma endirilməsi, istehlakçıların təbii qazla fasiləsiz və stabil rejimdə təmin edilməsi istiqamətində və rayonun qaz almayan kənd yaşayış məntəqələrinin qazlaşdırılması sahəsində işlər görülmüşdür.

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ